

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 38 (21.699)

23 fevral 2017-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 22-də Yaponiyanın iqtisadiyyat, ticarət və sənaye üzrə dövlət naziri Yoşifumi Matsumuranın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan ilə Yaponiya arasında əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən qeyri-neft sektoru, sənaye, kənd təsərrüfatı, səhiyyə, insan resursları, yeni yaradılmış sənaye zonalarına texnologiyaların gətirilməsi, sərmayə qoyuluşu və digər sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 22-də ABŞ dövlət katibinin enerji diplomatiyası üzrə köməkçisinin müavini xanım Robin Danniqanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə "Cənub Qaz Dəhlizi" layihəsinin icrası ilə bağlı məsələlər müzakirə edilib, sabah Bakıda keçiriləcək "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının növbəti iclasının əhəmiyyəti bir daha vurğulanıb, ABŞ dövlətinin enerji siyasətinin bu layihəyə öz dəstəyini bundan sonra da davam etdirəcəyi əminliklə qeyd olunub.



## Xocalı soyqırımının 25-ci ildönümünə həsr olunmuş tədbirlər keçirilir



*Bəşər tarixinin ən qanlı səhifələrindən biri olan Xocalı faciəsi ermənilərin azərbaycanlılara qarşı əsrlər boyu apardığı düşmənçilik siyasətinin növbəti təzahürü idi.*

AMEA Naxçıvan Bölməsində XX əsrin dəhşətli faciəsi olan Xocalı soyqırımının 25-ci ildönümünə həsr edilən "Xocalı soyqırımı: vəhşilik aktı" mövzusunda keçirilən elmi konfransda bu barədə danışılıb.

Əvvəlcə Xocalı faciəsi zamanı qətlə yetirilən insanların və Xocalı şəhərinin müdafiəsində iştirak edərək qəhrəmanlıqla şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra tədbiri AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açaraq iki əsrdir, tarixi torpaqlarımız hesabına "böyük Ermənistan" xülyasını reallaşdırmaq üçün qaniçən erməni cəlladlarının Azərbaycan xalqına qarşı həyata keçirdiyi soyqırımı siyasətindən danışıb. Qeyd edib ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni cəlladları tərəfindən törədilən həmin soyqırımı aktı dünya tarixində analoqu olmayan vəhşilikdir. Erməni quldurlarının Xocalıya hücumu zamanı yüzlərlə azərbaycanlı xüsusi qəddarlıqla qətlə yetirilib. Dinc sakinlər itkin düşüb, əsir götürülüb, yüzlərlə insan yaralanıb, ailələr büsbütün məhv edilib. Həmin gün dünya baş verən dəhşətli hadisələrə münasibətini bildirməyib. Yalnız ümummilli lider Heydər Əliyev 1993-cü ildə hakimiyyətə gəldikdən sonra bəşər tarixində misligörünməmiş bu faciənin beynəlxalq müstəvidə tanıdılması istiqamətində ciddi addımlar atıb. Ulu öndərin təşəbbüsü və səyi nəticəsində Milli Məclisdə qəbul edilən müvafiq qərardan sonra 26 fevral Xocalı Soyqırımı Günü kimi qeyd olunmağa başlayıb.

Tədbirdə AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent Yaşar Rəhimov "Xocalı faciəsinə gedən yol", həmin institutun şöbə müdirləri, tarix üzrə fəlsəfə doktorları Emin Şıxəliyev "Xocalı faciəsi azərbaycanlılara qarşı törədilən soyqırımıdır", Zeynəb Quliyeva "Xocalı soyqırımının azərbaycanlıların milli şüuruna təsiri", Asəf Orucov "Xocalı faciəsində erməni terror təşkilatlarının iştirakı" mövzularında elmi məruzələrlə çıxış ediblər.

Xocalı faciəsinin səbəbləri və dünyaya Xocalı həqiqətlərinin çatdırılması istiqamətində görülən işlərdən danışan məruzəçilər bununla əlaqədar Heydər Əliyev Fondunun xüsusi layihələr həyata keçirdiyini vurğulayıblar. "Xocalıya ədalət" beynəlxalq kampaniyası Xocalı soyqırımı haqqında həqiqətlərin dünyaya çatdırılması və ermənilərin burada törətdikləri soyqırımının beynəlxalq səviyyədə tanınması, eləcə də digər həyata keçirilən sistemli və ardıcıl tədbirlərdən bəhs edən natiqlər Azərbaycan xalqının heç vaxt torpaqlarımızın düşmən tapdağı altında qalması ilə barışmayacağını bildiriblər.

Qeyd olunub ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin işğaldan azad edilən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı imzaladığı sərəncam mühüm tarixi sənəddir və soydaşlarımızın torpaqlarımıza böyük qayıdışının başlanğıcı kimi əlamətdar bir hadisədir.

Konfransda Xocalı soyqırımına aid real faktları əks etdirən fotoşəkillər və sənədlərdən ibarət slayd nümayiş olunub.

*"Naxçıvan" Universitetində Xocalı faciəsinin 25-ci ildönümünə həsr olunmuş "Bəşəriyyətin ağır faciəsi – Xocalı soyqırımı" mövzusunda elmi-praktik konfrans keçirilib.*



Tədbir iştirakçıları əvvəlcə universitetin əsas korpusunun foyesində təşkil edilən "Xocalı fəryadı" adlı sərgiyə baxıblar.

Konfransı giriş sözü ilə universitetin rektoru, professor İsmayıl Əliyev açaraq bildirib ki, Xocalı soyqırımı Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olub. O dəhşətli gecədə Xocalı şəhəri yerlə yeksan olub, dinc əhaliyə vəhşicəsinə divan tutulub.

Konfransda universitetin Ümumi tarix kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Elçin Zamanovun "Xocalı faciəsi insanlığa qarşı cinayətdir", həmin kafedranın müdiri, tarix üzrə fəlsəfə doktoru Mehman Şabanovun "Xocalı soyqırımının beynəlxalq aləmdə tanıdılması" və kafedranın müəllimi Vaqif Hüseynovun "Xocalı soyqırımı: ikili standartlar və 100 ilin erməni yalanları" mövzularında çıxışları olub.

Diqqətə çatdırılıb ki, o gecə düşmən hücumuna məruz qalan Xocalının bütün əhalisi qəhrəmanlıq nümunəsi göstərib. Onların bəziləri sonadək vuruşub, bəziləri isə şəhid olaraq qəhrəmanlıq zirvəsinə ucalıblar. Vurğulanıb ki, ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Xocalı soyqırımına siyasi-hüquqi qiymət verilib. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclis "Xocalı soyqırımı günü haqqında" xüsusi qərar qəbul edib, sənəddə hadisənin baş verməsi səbəbləri təfsilatı ilə açıqlanıb. Eyni zamanda Xocalı faciəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, erməni qəsbkarlarının beynəlxalq müstəvidə ifşası mühüm vəzifə kimi qarşıya qoyulub.

Sonra "Naxçıvan" Universitetinin tələbələri Xocalıya həsr olunmuş şeirləri bədii qiraət ediblər.

Sonda tədbir iştirakçıları "Xoca" filminə baxıblar.

*Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə Xidmətinin əməkdaşları üçün 3 günlük təlimlər keçirilib.*

## Naxçıvanda xilasedicilər üçün qar uçqunlarında axtarış-xilasetmə təlimləri başa çatıb

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi və Avstriya Respublikası Federal Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq çərçivəsində keçirilən təlimlərdə məqsəd qar uçqunlarında axtarış-xilasetmə tədbirləri barədə şəxsi heyətin peşəkarlığını artırmaqdır.

Nəzəri və praktik məşğələlərdən ibarət təlimlərə nazirliyin 12 xilasedicisi cəlb olunub. Məşğələlərdə şəxsi heyətə qar uçqunu altında qalanların axtarışı və xilas edilməsi zamanı xüsusi vasitələrin tətbiqi, ekstremal şəraitdə davranış, səmti müəyyənetmə qaydaları haqqında ətraflı məlumatlar verilib. Məşğələlərdə həmçinin qar uçqunları altında qalanların axtarışı zamanı istifadə olunan müasir cihazlar, onlardan istifadə qaydaları xilasedicilərin diqqətinə çatdırılıb. Praktik olaraq həmin avadanlıqlar vasitəsilə axtarışlar aparılıb.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin 2 əməkdaşı bu il fevralın 12-dən 19-dək Qəbələ rayonunda qar uçqunlarında axtarış-xilasetmə, həmçinin xizəksürmə hazırlığı üzrə keçirilən təlim kurslarında iştirak edərək sertifikatlar alıb. Həmin kurslarda iştirak edən əməkdaşlara qar uçqunlarında axtarış-xilasetmə avadanlıqları da təqdim olunub.

Avstriya Respublikası Federal Daxili İşlər Nazirliyinin Alpinizm İdarəsinin rəisi Hans Ebner bildirib ki, onlar burada qar uçqunlarında xilasetmənin vəziyyəti ilə yaxından tanış olublar: "Əvvəlcə vurğulamaq istəyirəm ki, buradakı avadanlıqlar bizim çox xoşumuza gəldi, müasir avadanlıqlardır. Düşünürəm ki, biz qar uçqunlarından xilasetmə ilə bağlı xilasedicilərə öz təcrübələrimizi bölüşə bilərik. Avstriya elə bir ölkədir ki, orada qış turizmi geniş inkişaf edib və qar uçqunları da tez-tez baş verir, hər il 100-200 turist qar uçqunu altında qalır. Biz Alpinizm İdarəsi olaraq əlimizdən gələni edirik ki, bu uçqunlardan turistləri sağ çıxaraq".



Naxçıvan Muxtar Respublikası ilə tanışlıq zamanı buranın da qış turizm imkanlarının geniş olduğunu qeyd edən Hans Ebner bildirib ki, keçirilən təlimlər turistlərin təhlükəsizliyi üçün böyük rol oynayacaq.

## Türkiyə Naxçıvandan idxal olunan məhsullara gömrük rüsumları tətbiq etməyəcək

Türkiyə Azərbaycanın Naxçıvan Muxtar Respublikasında istehsal olunan məhsulların idxalçılarını gömrük rüsumlarının ödənişindən azad etməyə hazırdır.

Türkiyənin ərzaq, kənd təsərrüfatı və heyvandarlıq naziri Faruk Çelik mətbuata açıqlamasında belə deyib. Onun sözlərinə görə, Türkiyənin şərq vilayətlərinin tələbatını ödəmək üçün sərhədyanı ticarət çərçivəsində qonşu ölkələrdən bir sıra ərzaq məhsulları idxal oluna bilər. Nazir deyib ki, bununla belə, Türkiyə Ümumdünya Ticarət Təşkilatının qaydalarına uyğun fəaliyyət göstərməlidir.

Türkiyənin Nazirlər Kabinetinin ötən il "Sərhədyanı ticarətin nizamlanması haqqında" qərar qəbul etdiyini xatırladan Faruk Çelik qeyd edib ki, bu qərara əsasən, Naxçıvandan ölkənin sərhədyanı vilayətlərinə idxal müəyyən edilmiş limit çərçivəsində həyata keçiriləcək: "Bu qərarla əlaqədar olaraq, Naxçıvandan idxal olunan mallar gömrük rüsumlarından azad olunacaq. Naxçıvan Türkiyə ilə Azərbaycan arasında "birləşdirici halqa"dır. Naxçıvan coğrafi mövqeyinə görə strateji əhəmiyyət kəsb edir".

**Xəbərlər şöbəsi**



# Rayonların sosial-iqtisadi həyatı



# BABƏK

## gündən-günə inkişaf edir, çiçəklənir

***Muxtar respublikanın həm ərazisinə, həm də əhalisinin sayına görə böyük yaşayış məntəqələrindən biri olan Babək rayonu son illər əldə etdiyi sosial-iqtisadi inkişaf göstəriciləri ilə diqqəti cəlb edir. Ulu öndər Heydər Əliyevin yadigarı olan bu yurd yerində dövlət proqramlarının uğurlu icrası nəticəsində qəsəbə və kəndlərdəki yeniləşmə, insan amilinə verilən yüksək qiymət ötən ildə də diqqət mərkəzində olub.***

Güclü iqtisadi potensialı olan bu rayonda ötən əsrin sonlarında bütün sahələr məhvə sürüklənmişdi. Sovetlər Birliyinin son illərində bu solğun mənzərə rayonun qəsəbə və kəndlərində də özünü göstərir, sərhəd kəndləri olan Buzqov və Gərməçataq kimi yaşayış məntəqələrində teztez mərmi səsləri eşidilirdi. Yalnız ulu öndər Heydər Əliyevin 1990-cı ildə Naxçıvana gəlişi və buradakı qətiyyətli fəaliyyəti nəticəsində nəinki həmin kəndlər qorundu, ümumilikdə, Naxçıvanımız işğal təhlükəsindən xilas oldu, bugünkü inkişafın təməl daşları atıldı. Buna görə də hər kəs dahi rəhbərin ötən əsrin sonlarında Naxçıvandakı siyasi fəaliyyətini minnətdarlıqla xatırlayır.

Bu gün ulu öndərin siyasi xəttinə sədaqətin nəticəsində muxtar respublikanın bütün yaşayış məntəqələri kimi, xalq qəhrəmanı Babəkin adını daşıyan bu rayon da gündən-günə inkişaf edir, çiçəklənir. Hər il rayonun kəndlərində yeni məktəb binaları, kənd və xidmət mərkəzləri istifadəyə verilir, rahat yollar, körpülər salınır. Bütün bunlarla yanaşı, yeni iş yerlərinin açılması, əhalinin məşğulluğunun təmin edilməsi, xüsusən də kənd yerlərində kiçik sahibkarlığın inkişafı üçün dövlət dəstəyinin göstərilməsi ötən il də diqqət mərkəzində saxlanılıb. 2016-cı il ərzində iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 66 milyon 154 min manat investisiya yönəldilib. Bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,1 faiz çoxdur. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın həcmi 6 faiz artaraq 63 milyon 736 min 700 manat təşkil edib.

"Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq həyata keçirilən quruculuq tədbirləri ötən il də uğurla davam etdirilib. 2016-cı ilin ilk ayında Xəlilli kəndində yeni məktəb binası, kənd və xidmət mərkəzləri istifadəyə verilib, kənddaxili yollar abadlaşdırılıb. Kənd sakini Rza Hümbətov deyir ki, nəvə-nəticələrimə ötən əsrin 90-cı illərinin əvvəllərindən danışıram, muxtar respublikamızın, ölkəmizin ağır günlərini xatırladıram. Başa salıram ki, yaxşı təhsil almaq, müasir məktəb binalarında oxumaq heç də tarixin bütün dövrlərində mümkün olmayıb. Kimin ağlına gələrdi ki, bir gün Xəlillidə bu cür yaraşıqlı məktəb binası olacaq və şagirdlər internet vasitəsilə muxtar respublikanın muzey şəbəkəsinə qoşulacaq, açıq dərslərdə iştirak edəcəklər. Bütün bunlar müstəqilliyimizin bəhrələridir.

Ötən ilin aprel ayında rayonun daha bir kəndində – Yarımcada yeniliyin və müasirliyin sevinci yaşanıb. Yarımca Kənd Mərkəzi, yeni həkim ambulatoriyası, xidmət mərkəzi istifadəyə verilib. Kəndin məktəbi yenidən qurulub, yolları abadlaşdırılıb. Bu gün Yarımcadakı 342 şagird yerlik məktəb binası gələcək perspektivlər nəzərə alınaraq ən müasir şəkildə inşa edilib. Burada laboratoriya və fənn kabinələri müasir tədris avadanlıqları ilə təmin edilib, zəngin kitabxana fondu yaradılıb. Məktəbin direktoru Şərəbanu Əliyevanın sözləri ilə desək, yaradılan şərait gələcəkdəki uğurlara stimul verən başlıca səbəbdir. Ötən ilin məzunlarından 4-ü ali məktəblərə, 1-i orta ixtisas məktəbinə qəbul olunub, 2 nəfər 500-700 arasında bal toplayıb.

2016-cı ildə abad yaşayış məntəqələri sırasına qoşulan kəndlərdən biri də Məzrə olub. Ötən il sentyabrın 28-də Məzrə kənd tam orta məktəbinin yeni binası istifadəyə verilib. Kənd və xidmət mərkəzlərinin fəaliyyətə başlaması da yaşayış məntəqəsinin sakinləri tərəfindən sevinclə qarşılanıb.

Məzrə kənd tam orta məktəbində çalışan Azərbaycan Respublikasının Əməkdar müəllimi Güllübəyim Dadaşova bildirir ki, yaradılan şəraitin müqabilində biz müəllimlər ölkəmizin, muxtar respublikamızın zəngin tarixini, adət-ənənəsini şagirdlərə yaxşı aşılayır, onları vətənpərvər, elinə-obasına bağlı ruhda tərbiyə etməyə çalışırıq. Gələcəyimiz məhz bizə əmanət olunub. Biz də gənclərimizi düzgün istiqamətləndirir və formalaşdırırıq.

* * *

Rayonda aqrar sahənin inkişafına da xüsusi diqqət yetirilir. 2016-cı ilin məhsulu üçün 9 min 167 hektar sahədə taxıl əkini aparılıb, 28 min 587 ton məhsul əldə edilib. Görülən məqsədyönlü tədbirlər kənd təsərrüfatının inkişafına təsirsiz ötüşməyib. Sadalananların fonunda Kərimbəyli və Kültəpə kəndlərində istifadəyə verilən yeni suvarma şəbəkəsini göstərmək olar. Yeni suvarma sisteminin qurulması nəticəsində həmin kəndlərin 565 hektar torpaq sahəsində suvarma imkanları yaxşılaşdırılıb ki, bunun da 217 hektarı yeni əkin dövriyyəsinə qatılmış torpaqlardır.

Kültəpə kənd sakini Fehruz Qasımov rayonun bacarıqlı torpaq mülkiyyətçilərindəndir. Deyir ki, qarşıdan əkinçi ömrünün, əkinçi həyatının ən qızğın mərhələsi gəlir. Bu gün özümüzün pay torpağımız, suyumuz, kənd təsərrüfatı texnikalarımız var. Bol məhsul istehsal edərək daxili bazarın yerli məhsullarla təminatına biz torpaq mülkiyyətçiləri də töhfə verməyə çalışırıq.

Yol mədəniyyət, iqtisadiyyat, bir sözlə, həyat deməkdir. Ölkə başçısının müvafiq sərəncamı ilə Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolu yenidən qurulub, adıçəkilən yolun ikinci hissəsi ötən il noyabrın 11-də istifadəyə verilib. Nehrəm kənd sakini Tofiq Abutalıbovun bu barədə dediklərindən:

– Yolun istənilən səviyyədə olmaması və buna görə də avtomobillərin tez bir zamanda sıradan çıxması bizi uzun illər narahat edib, düşündürüb. Amma bu gün Nehrəm kimi böyük bir kəndə istər rayon mərkəzindən, istərsə də "alaqapı" deyilən tərəfdən gəlsən, rahat yol səni müşayiət edəcək. Nehrəmin, ümumilikdə, Naxçıvanımızın heç vaxt bu qədər inkişaf etdiyini görməmişəm. Dahi rəhbərin müəyyənləşdirdiyi siyasi xəttin layiqli davamçılarının əzmkar fəaliyyəti nəticəsində hər il neçə-neçə kənddə abadlıq-quruculuq işləri aparılır. Bu quruculuq işlərindən Nehrəmə də böyük pay düşüb.



Ötən il Nehrəmdə yeni kənd məscidi də istifadəyə verilib. Kənd sakinləri Hacı Əli Salahov, Səməd Əhmədov və digərləri muxtar respublikada dini dəyərlərin qorunub saxlanıldığını, islami dəyərlərə hörmətlə yanaşıldığını qeyd edir və 2018-ci ildə Naxçıvanın İslam mədəniyyətinin paytaxtı elan edildiyini xatırladaraq bu məscidin həmin tədbirə mühüm töhfə verəcəyini bildirirlər.

***Bu gün Babək rayonuna yolu düşən hər kəs əldə olunmuş nailiyyətlər qarşısında öz heyranlığını gizlədə bilmir. Bu isə 26 illik müstəqillik yollarında az yol qət etmədiyimizdən xəbər verir. Müstəqil dövlətin müstəqil vətəndaşlarının isə qurulub-yaradılanlar barədə hələ deməyə çox sözləri var.***

**Muxtar RZAZADƏ**

# Sahibkarlığın inkişafına göstərilən dövlət qayğısı öz bəhrəsini verir

Əhalisinin 70 faizdən çoxu kəndlərdə yaşayan muxtar respublikamızda əkinçiliyin və heyvandarlığın inkişafına geniş imkanlar açılıb, sahibkarlara güzəştli şərtlərlə texnika, yanacaq, kredit, subsidiyalar, gübrə verilib, suvarma sistemlərinin təkmilləşdirilməsi üçün yeni infrastruktur yaradılıb. Məqsəd əksər kənd təsərrüfatı məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsini təmin etməkdən ibarətdir. Bunun üçün möhkəm baza yaradılıb, yerli xammalla işləyən, nəinki daxili bazarı təmin edən, hətta xarici bazara çıxmaq imkanı olan rəqabətqabiliyyətli emal və sənaye müəssisələri həyata vəsiqə alıb. Təkcə bir faktı qeyd edək ki, 1996-cı ildə, ümumilikdə, 40 sənaye müəssisəsinin olduğu muxtar respublikamızda hazırda bu rəqəm 11 dəfə artaraq 442-yə çatdırılıb. Bu müəssisələrin də 311-i və ya 70 faizi tamamilə yerli xammaldan istifadə edərək fəaliyyət göstərir.

Bu il fevralın 11-də Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov muxtar respublikada fəaliyyət göstərən sahibkarlarla görüşdə deyib: ***"Bu gün dövlət orqanlarının sahibkarlığın inkişafına baxışı aydındır. Biz nə istəyirik? İstəyirik ki, sahibkarlar sinfi formalaşsın, sahibkarlığın inkişafı hesabına yeni iş yerlərinin açılması, keyfiyyətli məhsul istehsalı davam etdirilsin. Hər bir sahibkar da istəyər ki, sabitliyin təmin olunduğu yerdə fəaliyyət göstərsin. Bir sözlə, hər bir sahibkar məqsədyönlü fəaliyyəti ilə öz biznesinin və ölkə iqtisadiyyatının inkişafına töhfəsini verməlidir".***

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, əhalini keyfiyyətli yerli məhsullarla təmin etməyin, yeni iş yerlərinin açılmasına nail olmağın əsas yollarından biri də bölgələrdə istehsal müəssisələrinin, fermer təsərrüfatlarının yaradılmasıdır. Beləliklə, həm yerli resurslardan istifadə edilməklə ekoloji təmiz məhsullar istehsal olunur, həm də yerlərdə əhalinin məşğulluğu təmin edilir. Odur ki, məsələn, Almaniya kimi Avropa ölkələrində kiçik sahibkarlığın inkişafına xüsusi fikir verilir. Naxçıvanda da kiçik sahibkarlığın inkişafına, kənd yaşayış məntəqələrində istehsal müəssisələrinin, fermer təsərrüfatlarının qurulmasına ciddi diqqət yetirilir. Bu il Biznes Mərkəzində sahibkarlarla keçirilən görüşdə yeni istehsal sahələrinin, təsərrüfatların qurulması üçün verilən kreditlərin, əsasən, kənd təsərrüfatı sahəsini əhatə etməsi də dediklərimizə misaldır. Kredit alaraq öz təsərrüfatını genişləndirməyə başlayan sahibkarlardan biri də Pərviz Məmmədovdur. Kəngərli rayonunun Çalxanqala kəndində fəaliyyət göstərən sahibkarla yaratdığı təsərrüfatda görüşüb həmsöhbət olduq. Müsahibim qeyd etdi ki, ötən əsrin 90-cı illərinin əvvəllərində muxtar respublikamızda yaşayan insanlar sosial problemlər məngənəsində sıxılırdı. Kəskin kontinental iqlim şəraiti olan Naxçıvanın sərt soyuğundan qorunmaq üçün uzun illər ərzində ərsəyə gətirilən yaşıllıqlara, hətta meyvə bağlarına balta çalındı. Kəndli də əsas məşğuliyyətindən uzaq düşdü. Torpaqlar əkilib-becərilmədi.

Ölkəmizdə yaradılan sabitlik və iqtisadi inkişaf kəndlərimizə də yeni həyat bəxş edib. Son illər muxtar respublikamızda həyata keçirilən genişmiqyaslı quruculuq tədbirlərindən bizim kəndimizə də pay düşüb, müasir tələblərə cavab verən sosial obyektlər istifadəyə verilib, insanların firavan yaşaması üçün gözəl şərait yaradılıb. Çalxanqala kəndi də müasirləşən, yeniləşən yaşayış məntəqələrimizdən birinə çevrilib.

"Yaradılan şəraitdən bəhrələnməklə daxili bazarı yüksəkkeyfiyyətli yerli məhsullarla təmin etmək üçün mövcud imkanlardan səmərəli istifadə etməyə səy göstəririk", – deyən sahibkar onu da əlavə etdi ki, 2010-cu ildə Kəngərli rayonunda fermer təsərrüfatımızı yaratdıq. Çalxanqala kəndində yaradılan təsərrüfatımızın ümumi sahəsi 15 hektardır. İlk illərdə Sahibkarlığa Kömək Fondundan güzəştli şərtlərlə 30 min manat kredit götürərək 3,5 hektar ərazidə badam və ərik bağı, şəxsi vəsaitimiz hesabına üzüm bağı saldıq. İlk illərdən başlayaraq yüksək məhsuldarlığa və keyfiyyətli məhsul istehsalına nail olduq. Daha sonra məhsullarımızın satışından əldə etdiyimiz 10 min manat vəsait hesabına 70 baş xırdabuynuzlu və 6 baş iribuynuzlu olmaqla, heyvandarlıq təsərrüfatımızı yaratdıq. Hazırda təsərrüfatımızda 300 başdan çox xırdabuynuzlu heyvan bəslənilir. Heyvandarlıq təsərrüfatımızın yemə olan tələbatının ödənilməsi məqsədilə 8 hektar sahədə arpa əkini həyata keçirmişik. Hər il mövsümdə 2 hektar ərazidə tərəvəz əkini aparmaqla ucuz qiymətlərlə bazarlara məhsul çıxarırıq.

Təsərrüfatın yaradılmasının əhalinin məşğulluğuna da öz töhfəsini verdiyini bildirən sahibkar dedi ki, ailəmizin işçi qüvvəsindən əlavə 5 yeni iş yeri açılıb. Orta aylıq əməkhaqqı 300 manat olan işçilər pulsuz nahar yeməyi ilə təmin olunurlar. Təsərrüfatda yaradılan hər cür şərait məhsuldarlığın artırılmasına, mövsümi ekoloji təmiz məhsulların istehsalına imkan verir. Əhalinin tələbatının ödənilməsi məqsədilə yüksəkkeyfiyyətli məhsul istehsalına və həmin məhsulların xarici bazarlara çıxarılmasına nail olmaq əsas hədəfdir.

Sahibkarlara göstərilən qayğıdan bəhrələnərək bu ildən heyvandarlıq təsərrüfatının genişləndirilməsinə başlanılıb. Təsərrüfata əlavə 20 baş iribuynuzlu heyvanın alınması məqsədilə biznes-plan hazırlanıb Sahibkarlığa Kömək Fonduna təqdim edilib. Naxçıvan Biznes Mərkəzində sahibkarlarla keçirilən görüşdə 6 sahibkara, o cümlədən Pərviz Məmmədova güzəştli kreditin çeki təqdim olunub.

İnanırıq ki, kollektiv sahibkarlığın inkişafına göstərilən hərtərəfli qayğıdan və onların fəaliyyəti üçün yaradılan şəraitdən ruhlanaraq daxili bazarı yüksəkkeyfiyyətli yerli kənd təsərrüfatı məhsulları ilə təmin etmək üçün mövcud imkanlardan səmərəli istifadə etməyə səy göstərəcəkdir.

**Kərəm HƏSƏNOV**

# Azərbaycan: Şərur rayonu regional arxeoloji turizmin əsas simvoludur




Qafqaz regionunun əsas turistik məkanlarından olan Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda zəngin arxeoloji ərazilər, mədəniyyət abidələri və qalalar vardır. Bu ərazilərdəki VIII əsrə aid qədim keramika nümunələri mühüm tədqiqat materiallarıdır. Şərur rayonundakı Ağbucaq yaşayış yeri və onun nekropolu, Axaməd tarixi ərazisi və Şahbuz rayonundakı Ağdaban qalası Naxçıvanın qədim yaşayış yerlərindəndir.

Şərur rayonunun Axura kəndinin qərb hissəsində "Ağbucaq" arxeoloji abidəsi yerləşir. Yaşayış yeri çox da hündür olmayan təpənin üzərini və onun ətrafını əhatə edir. Bu ərazidə son antik dövrə aid çəhrayı rəngli keramika parçalarına rast gəlinib. Bu gün əraziyə səfər edənlər yaşayış yerində qədim tikinti qalıqları ilə qarşılaşa bilərlər. Tikinti qalıqları vaxtilə burada yaşayış binalarının olduğunu təsdiq edir. Ərazidən aşkar olunmuş keramika məmulatları Ağbucaq yaşayış yerinin e.ə.V-IV əsrdə yarandığını təsdiq edir.

Şərur rayonunun Axura kəndində konusvarı təpənin üzərində Ağbucaq nekropolu yerləşir. Qəbirlər daş qutu tiplidir. Qəbirlərin yan divarları yastı sal daşlarla qurulmuş, üzərləri isə eynitipli daşlarla örtülmüşdür. Çox təəssüf ki, nekropollar ərazidə kənd təsərrüfatı işləri aparılarkən tamamilə dağıdılmışdır. Nekropolların yerləşdiyi ərazidən yalnız bir neçə çəhrayı rəngli keramika parçaları aşkar olunmuşdur. Bu keramika nümunələri son antik dövr üçün xarakterikdir. Ərazidə aparılmış araşdırmalar zamanı müəyyən edilmişdir ki, nekropolda həmçinin küp qəbirlərdə dəfnetmə adəti də olmuşdur. Tədqiqatlar zamanı nekropolun şərq tərəfindən iri küp parçası tapılmışdır. Arxeoloji materiallara əsasən nekropolu e.ə. II əsrə aid etmək olar.

Şərur rayonunun Axaməd kəndinin cənub-qərbində e.ə I minilliyə aid olan Axaməd yaşayış ərazisi yerləşir. Ərazidə aparılan əkin işləri zamanı iri tikili daşları, daş əmək alətləri (dən daşı və dəstə), həmçinin mühüm əhəmiyyətli keramika məmulatları tapılmışdır. 2001-ci ildə ərazidə arxeoloqlar tərəfindən aparılmış tədqiqatlar nəticəsində oradan zərif hazırlanmış qab nümunələri, qazanlar və qədim ev qalıqları aşkarlanmışdır. Bu region narın qum qatışıqlı gildən yoğurulmuş və yaxşı bişirilmiş boz rəngli qablarla məşhurdur. Ərazidən aşkarlanmış məmulatlara əsasən demək olar ki, bu yaşayış yeri e.ə.VIII əsrə aiddir.

Şahbuz rayonunun Şada kəndinin cənubunda hündür oval təpənin üzərində arxeoloji abidə olan Ağdaban qalası yerləşir. Təpənin üst hissəsi düz olduğundan yaşayış yeri üçün əlverişlidir. Təpənin zirvəsi qala divarları ilə əhatə olunmuşdur və divarın qalıqlarına bu gün də tamaşa etmək olur. Bəzi qisimlərdə divarlar 1 metr hündürlüyündə saxlanmışdır. Tarixçi və arxeoloqlar qədim dövrlərdə mühüm memarlıq planı hesab edilən dördkünc formalı, daşdan inşa edilmiş binaların qalıqlarını qalanın daxilində müşahidə etmişlər. Tədqiqatlar zamanı yaşayış yerindən həmçinin antik dövrün son mərhələsinə aid çəhrayı rəngli keramika parçaları da aşkar olunmuşdur. Arxeoloji tapıntılar təsdiq edir ki, yaşayış yeri I-X əsrlərə aiddir.

Naxçıvan Muxtar Respublikasının rəhbəri muxtar respublikanın bütün ərazisindəki mövcud tarixi, mədəni və arxeoloji abidələrə yüksək diqqət göstərir. Şərur bölgəsi bir çox qeyri-adi xüsusiyyətləri, arxeoloji əraziləri, turistlərin diqqətini cəlb edə biləcək xoşməramlı insanları və infrastrukturu ilə xarici qonaqları və turistləri gözləyir.

**Peter TASE**
**19.02.2017**
***Amerika Birləşmiş Ştatlarının "Foreign Policy News" qəzeti***

# Polad qələm sahibləri

***Naxçıvanla bağlı apardığımız araşdırmalarda hər dəfə fərqli və maraqlı mövzularla rastlaşırıq. Həmin maraqlı mövzuları oxucularımızla da bölüşmək istəyirik. Bu dəfə həkkaklıq barəsində danışmaq qərarına gəldik.***

***Həkkak kimdir və həkkaklıq nədir?***

Həkkak oymaçı deməkdir. Yəni polad qələmlə bərk materiallar üzərində yazılar, nəqşlər oyan sənətkarlara həkkak deyilir. Bu, ta qədim dövrlərdən başlayaraq Naxçıvanda əhəmiyyətli sənət sahələrindən biri olub. Həkkaklıq, öz növbəsində, bədii oyma sənəti ilə birgə qravüranın inkişafını şərtləndirən qrafika sənəti növlərindən hesab edilir.

Qeyd edək ki, X-XII əsrlərdə Naxçıvanın təsərrüfat həyatında sənətkarlıq üstün yerlərdən birini tuturdu. Sənətkarlığın inkişafı Naxçıvanın iqtisadiyyatında mühüm əhəmiyyət kəsb edirdi. Burada müxtəlif sənət növləri ilə məşğul olan ustalar çalışırdı. Şəhərdə bacarıqlı memarlar, dülgərlər, bənnalar, dulusçular, dəmirçilər, toxucular, dabbaqlar, bəzzazlar, başmaqçılar, həkkaklar, xalçaçılar, zərgərlər, boyaqçılar və başqa sənət adamları yaşayırdı. Şəhərlərin bəzilərində otuzdan artıq sənət növü vardı. İnkişaf etmiş feodalizm dövründə Azərbaycanda bir neçə yüz sənət və peşə sahəsi olub. Həkkaklar ərəb əlifbasının bədii imkanlarından da bəhrələnərək mis qablar üzərində kəlamlar həkk edib, epiqrafik ornamentlərlə bəzəyiblər.

***Naxçıvan həkkaklıq məktəbinin tarixdə iz qoyan nümayəndələri***

Naxçıvan həkkaklıq məktəbinin nümayəndələrindən olan Əbülqasimin adı Ordubad şəhərində qeydə alınmış bir başdaşı üzərindəki məzar kitabəsi vasitəsilə elmi dövriyyəyə daxil edilib.

Nadir şahın Hindistana yürüşü xatırlanan hicri 1151-ci il (1738-1739-cu illər) tarixli məzar kitabəsində qeyd olunduğu kimi kitabəni həkkak Əbülqasim həkk edib. Kitabənin mətninin tərcüməsi belədir: "Nadir şah Hindistana getdi". Kitabənin tarixinə əsasən məlum olur ki, həkkak Əbülqasim həyatının əsas hissəsini 18-ci yüzillikdə yaşayıb.

"Naxçıvan tarixi"ndə də biz bu məlumatlarla qarşılaşırıq. Məlum olduğu kimi, Əfşarlar dövlətinin banisi Nadir şah 1737-ci ildə Orta Asiya və Hindistan üzərinə yürüşə başlayıb və 1739-cu ildə Hindistanın paytaxtı Dehli şəhərini tutub. Kitabənin tarixi bu yürüşün qələbə ilə başa çatdığı və Dehli şəhərinin tutulduğu 1739-cu illə eyni vaxta düşür. Buna görə də ehtimal etmək olar ki, başdaşının xatirəsinə hazırlandığı mərhum Nadir şahın Hindistan yürüşü dövründə vəfat etdiyindən kitabədə bu hadisə də xatırladılıb. Həmçinin kitabə adı başqa qaynaqlarda məlum olmayan Əbülqasim adlı həkkakın adını bizə təqdim edir.

Məhəmmədəli əl-Hüseyni əl-Qərəvi də həkkak olub. Naxçıvan həkkaklıq məktəbinin görkəmli nümayəndəsi olan əl-Qərəvi Ordubad şəhərində Yəhya bəy (Təkeşiyi şiə təkyəsi) məscidinin kitabəsini yazıb. Əl-Qərəvi öz adını da həmin kitabəyə həkk edib. Nəstəliq xəttini ən gözəl şəkildə əks etdirən Məhəmmədəli əl-Hüseyni əl-Qərəvinin bizə miras qoyduğu kitabəyə əsasən, onun XVIII əsrin son rübü, XIX əsrin birinci yarısında yaşadığını qeyd etmək olar.

AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli bu barədə "Ordubad şəhərinin müsəlman epiqrafiyası abidələri" kitabında yazır: "Təkeşiyi (Yəhya bəy) məscidində şərqdən giriş qapısının baş tərəfində, ağ mərmər lövhə üzərində (82x55 sm), açılmış çərçivələr içərisində fars dilində, nəstəliq xətti ilə şeirlə həkk olunmuş kitabənin mətni belədir: "Ey hifz edən! Ey hifz olunan! Bu dövran içərisində bərqərar olmuş dövlət ki onun hökmüylə dövr edir onun itaətində olanlar, Şah Abbasın asiman ədalətindən, onun ədalətindən cahan abad olmuşdur. Bu astanadan keçənlərdir ki, anaları onları dünyaya gətirmişdir. Dünyada insanlar xoş əməl edirdilər. Gəlmədi onun kimisi o yerdən bu nəslə dünya mülkünə ondan sonrakı ümmətdən. Quranın nümunəsində yüksəldi, mərhəmət yolu ilə yetişdi hökumətə. Necə ki viranələr abad oldu, cahan abad oldu, o gün ki viran idi, o gündən sonra bir kəs etmədi fəryad. Bəli, o ki rəiyyətə sultanlıq etdi. Xeyirdən başqa bir işə əmr etmədi. Hər kəsi böyük istəklərin həyata keçməsi üçün öz qabiliyyətinə görə işə gətirdi". Həmçinin tədqiqatçı əsərində bu kitabənin Məhəmmədəli əl-Hüseyni əl-Qərəvi tərəfindən həkk olunduğunu qeyd edir: "Onu Məhəmmədəli əl-Hüseyni əl-Qərəvi əl-Həccar (daşyonan) həkk etdi".

Məhəmməd Saleh əl-Hüseyni əl-Qəzvini də xəttat və həkkak olub. Onun adı Ordubad şəhərindəki "Malik İbrahim" qəbiristanlığındakı bir başdaşında həkk edilib.

Əslən Qəzvinli olan sənətkar uzun müddət Naxçıvanda yaşayıb. Naxçıvan həkkaklıq məktəbinə töhfələrini verən, Mirzə Həşim Mömin oğlunun məzar kitabəsini yazan və mərmər lövhəyə həkk edən Məhəmməd Saleh əl-Hüseyni əl-Qəzvini XVIII əsr Naxçıvanının sənətkarlıq mərkəzi olmasının, müxtəlif şəhərlərdən gələn sənətkarları da hörmət və izzətlə qarşılayıb, qoynunda onları da əzizlədiyinin sübutu kimi son dərəcə əhəmiyyətlidir.

Həkkaklıq Naxçıvanın tarixində mühüm yer tutan sənət nümunəsidir. Naxçıvanın qədim sənət növləri haqqında daha çox araşdırmaların aparılması yeni faktların ortaya çıxmasına səbəb olur. Onların öyrənilməsi və gələcək nəsillərə ötürülməsi həm də tariximizin yaşadılması baxımından əhəmiyyətlidir.

**Nərgiz İSMAYILOVA**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı***

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Eynəli bəy Sultanovun 150 illik yubileyinin keçirilməsi haqqında" 2016-cı il 15 fevral tarixli Sərəncamına əsasən, görkəmli yazıçının yubileyi muxtar respublikada qeyd olunmuş, həyat və yaradıcılığı haqqında geniş tədqiqatlar aparılmışdır. Bununla da, unudulmaqda olan ziyalımız daha geniş şəkildə ictimaiyyətə təqdim olunmuş, xalqımız qarşısındakı xidmətləri layiqincə qiymətləndirilmişdir.***

# Eynəli bəy Sultanov haqqında yeni arxiv materialları əldə olunub

Eynəli bəy Sultanovla bağlı araşdırmaların davam etdirilməsi, xüsusilə də görkəmli ziyalının həyat və fəaliyyətinin Tiflis dövrünün geniş tədqiq olunması bu gün qarşıda duran əsas vəzifələrdəndir. 1908-ci ildə Naxçıvandan Tiflisə köçən və ömrünün sonuna qədər bu şəhərdə yaşayan ədibin həyatının bəzi məqamlarının araşdırılmasına böyük ehtiyac vardı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun tapşırığına uyğun olaraq Gürcüstan Milli Arxivində və Gürcüstan Parlamentinin Kitabxanasında araşdırmalar aparılmış, Eynəli bəy Sultanovla bağlı bir sıra sənədlər aşkarlanmışdır. Tapılan yeni sənədlərin bəziləri o dövrdə rus dilində nəşr olunan və illik ümumi statistik yekunlara həsr olunmuş sənədlərdən ibarət "Qafqaz təqvimi" məcmuəsində (1909, 1912, 1913, 1914-cü illər üzrə) yer almışdır.

Məlum olmuşdur ki, Eynəli bəy Sultanov həmin dövrdə Tiflisdə yaşamasına baxmayaraq, həm də Qars məhkəməsi hakiminin baş köməkçisi vəzifəsində çalışmışdır. Bu yerdə bir dəqiqləşdirməyə ehtiyac yaranır. Əvvəlki tədqiqatlardan aydın olur ki, Eynəli bəy Sultanov 1892-ci ildə Naxçıvanda yaxın dostu Əsəd ağa Kəngərli ilə birlikdə gizli mətbəə təşkil edərək burada müxtəlifməzmunlu bəyannamələr çap etdirmişdir. Lakin bundan xəbər tutan iri torpaq sahibləri, fanatik dindarlar Eynəli bəy Sultanovu qorxulu şəxs elan etmiş, qəza rəisinin göstərişi ilə o, təqib olunmuşdur. Təqiblərdən ehtiyatlanan və çətin vəziyyətdə qalan ədib Qars şəhərinə gedərək özü üçün iş axtarmış, bir neçə ay Qars şəhər idarəsində rütbəsiz məmur işləmişdir. Əldə olunan yeni sənədlərdə Eynəli bəy Sultanovun 1909-1912-ci illərdə də Qars məhkəməsi hakiminin baş köməkçisi vəzifəsində fəaliyyət göstərməsi onun bioqrafiyasında yeni fakt kimi diqqəti cəlb edir.

Əldə olunan sənədlərdən biri də o dövrdə Tiflis sakinlərinin yaşadığı ünvanların siyahısıdır. Əlifba sırası ilə tərtib olunmuş bu siyahıda Eynəli bəy Sultanovun da adı vardır. Sənəddə yazıçı-pedaqoqun Tiflis şəhərinin Sumbatov küçəsi 11 ünvanında yaşadığı qeyd olunur.

"Qafqaz təqvimi" məcmuəsinin 1914-cü ildə nəşr olunmuş hesabatında isə Zubalov adına xalq evi yanında Azərbaycan dram şöbəsinin təsis edilməsi göstərilib. Burada Eynəli bəy Sultanovun həmin dram şöbəsinin katibi vəzifəsinə təsdiq olunması öz əksini tapıb. Bu sənədin üzə çıxarılması Eynəli bəy Sultanovun bioqrafiyasındakı bir faktın dəqiqləşdirilməsi baxımından olduqca əhəmiyyətlidir. Belə ki, bu günə kimi ayrı-ayrı tədqiqatlarda Zubalov adına xalq evi yanında Azərbaycan dram şöbəsinin təsis edilməsi tarixi 1909-cu il kimi göstərilirdi. Amma arxiv sənədindən də göründüyü kimi, bu dram şöbəsinin yaranma tarixi 1909-cu il yox, 1913-cü ilə aiddir.

Arxiv sənədlərindən biri isə 1941-ci ildə nəşr olunmuş "Gürcüstanda rus dövri mətbuatının biblioqrafiyası (1828-1920-ci illər)" adlanır. "Daxili İşlər Nazirliyi Müəssisələri" nəzarətində nəşr olunan biblioqrafiyada bir neçə yerdə Eynəli bəy Sultanovun adına rast gəlinir. Burada görkəmli ədibin Tiflis dövrü fəaliyyətinin bir sıra vacib məqamları, həmçinin ayrı-ayrı qəzet və jurnallarla əməkdaşlığı öz əksini tapıb.

Əldə olunan arxiv materiallarında rast gəlinən bir fakt isə Eynəli bəy Sultanovun Tiflis dövrü fəaliyyətində yeni səhifə kimi diqqəti çəkir. Həmin sənəddə göstərilir ki, Eynəli bəy Sultanov, Akunov, Kazançeva (adları göstərilməyib) və Tiflisin digər görkəmli pedaqoji qüvvələri ilə birlikdə 1913-cü ildə rus dilində "Qafqaz məktəbi" ("Кавказская школа") adlı aylıq jurnal nəşr etməyə başlayıb. Lakin 3 nömrədən sonra jurnalın dövriliyində fasilələr yaranmış, 4-5 və 6-7-ci nömrələr birlikdə nəşr edilmişdir. 1913-cü ilin avqust ayından isə maddi dəstək olmadığından jurnalın nəşri dayandırılmışdır. Arxiv sənədində o da göstərilir ki, jurnalın ilk üç nömrəsi bu gün də Gürcüstanın Dövlət Kütləvi Kitabxanasında saxlanılır.

Əldə olunan yeni arxiv materialları bir daha təsdiq edir ki, görkəmli yazıçı-publisist və maarifçi Eynəli bəy Sultanovun həyat və fəaliyyətinin hələ çox araşdırılmamış məqamları var. Göstərilən dövlət dəstəyi bundan sonra da Eynəli bəy Sultanov haqqında yeni arxiv sənədlərinin üzə çıxarılmasına imkan verəcəkdir. Bu da gənc tədqiqatçıları daha fədakarlıqla və məsuliyyətlə çalışmağa sövq edir.

**Elxan MƏMMƏDOV**
***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun şöbə müdiri***

# Böyük yazıçının anadan olmasının 148-ci ildönümü qeyd edilib

***Böyük yazıçı, dramaturq və publisist Cəlil Məmmədquluzadənin anadan olmasının 148-ci ildönümü münasibətilə ədibin Naxçıvan şəhərindəki ev-muzeyində tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə muzeyin direktoru Aytən Ələkbərova açıb.

Tədbirdə Azərbaycan Respublikasının Əməkdar elm xadimi, filologiya üzrə elmlər doktoru Hüseyn Həşimlinin "Cəlil Məmmədquluzadə və Azərbaycançılıq", AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Aygün Orucovanın "Cəlil Məmmədquluzadə və klassik ədəbi irsimiz" mövzularında çıxışları olub.

Bildirilib ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev həmişə Cəlil Məmmədquluzadə irsinə, onun əsərlərinin tədqiqi və nəşri məsələlərinə böyük diqqət, qayğı göstərirdi. 1994-cü il dekabrın 18-də Bakıda Cəlil Məmmədquluzadənin anadan olmasının 125 illiyi ərəfəsində burada ev-muzeyi açılıb. Görkəmli dövlət xadimi Heydər Əliyevin 1998-ci il 19 iyun tarixli Sərəncamına əsasən, Naxçıvan şəhərində də Cəlil Məmmədquluzadənin ev-muzeyi yaradılıb, 1999-cu il oktyabrın 13-də muzeyin açılışı olub, böyük yazıçının vaxtilə müəllimlik etdiyi Nehrəmdə və Cəlilkənddə ədibin xatirə muzeyləri yaradılıb, Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyinə və Naxçıvan Dövlət Musiqili Dram Teatrına Cəlil Məmmədquluzadənin adı verilib. Bakıda və Naxçıvanda ədibin heykəlləri ucaldılıb.

Sonda muzeyin ekspozisiyasına baxış olub.

**Əli RZAYEV**

# Tamaşaçını ovsunlayan sənətkar

***Teatr – beş hərfdən ibarət bu sözün arxasında hisslər və emosiyalar, insanlar və talelər dayanır. Bəzən bu beş hərfdən ibarət söz bütöv bir millətin, xalqın varlığını, onun dünyagörüşünü, ən əsası, mədəniyyətini əks etdirən bir göstərici olur. Təbii ki, bütün bunların arxasında insan – ömrünü teatra bağlayan aktyor və aktrisa dayanır.***



O da aktrisa idi. Taleyini Naxçıvanın teatr mühitinə bağlayan, ömrünün, demək olar ki, çox hissəsini bu mühitdə yaşayan, teatrı həyat tərzinə çevirən Xalq artisti Roza Cəfərxanova Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktrisası idi. Roza Cəfərxanova 1927-ci il fevralın 23-də Ordubadda doğulub. Uşaqlıqdan teatra həvəsi olan balaca Roza 14 yaşından dram dərnəyinin hazırladığı həvəskar tamaşalarda çıxış edib. O zaman Ordubadda yetərincə mədəni mühit var idi. Hətta burda 1949-cu ilə qədər Dövlət Dram Teatrı da fəaliyyət göstərirdi. Roza Cəfərxanova orta məktəbi bitirən kimi taleyini bu teatrın səhnəsi ilə bağlayıb. Ordubad teatrında Üzeyir Hacıbəyovun "O olmasın, bu olsun" komediyasında Gülnaz, "Arşın mal alan"da Asya, "Ər və arvad"da Minnət xanım, Səməd Vurğunun "Vaqif" dramında Gülnar, "Fərhad və Şirin"də Şirin və digər rollar oynayıb. Roza Cəfərxanova 1948-ci ildə Naxçıvan şəhərinə gələrək burada fəaliyyət göstərən teatrda işləməyə qərar verib. Elə bu teatrda da onun yaradıcılıq imkanları, bacarığı, istedadı üzə çıxıb. Gənc aktrisa ozamankı rejissorların diqqətini çəkib. Bir-birindən maraqlı rollar oynamaqla həmin illərdə Naxçıvan Dövlət Musiqili Dram Teatrının aparıcı aktrisalarından birinə çevrilib.

Roza xanım bu teatrın səhnəsində 200-ə qədər rol oynayıb. Bu rolların əksəriyyəti bir-birindən tamamilə fərqli şəkildə təqdim edilib. Elə buna görə də 1984-cü ildə Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adına layiq görülüb. Əgər onun yaratdığı obrazları saysaq, onda çox uzun bir siyahı alınar. Roza xanımla Naxçıvan Dövlət Musiqili Dram Teatrında eyni vaxtda işləyən bir adam kimi onun rollarından yox, sənətə olan marağından, sevgisindən söz açmaq istəyirəm. 1997-ci ildə Naxçıvan teatrında peşəkar rejissorun olmadığından istifadə edən bir aktyor M.F.Axundovun "Lənkəran xanının vəziri" komediyasını plandankənar olaraq səhnələşdirmək istəyirdi. Mən Mədəniyyət və İncəsənət Universitetindən yenicə məzun olmuşdum. Əvvəllər Kukla Teatrında işləsəm də, böyük səhnə ilə tanışlığım o qədər də yox idi. Amma "rejissor" bu əsərdə mənə əsas rollardan olan Teymur ağa obrazını vermişdi. Mən isə kollektivin içərisində ona etiraz etdim ki, mənim səhnə təcrübəm yoxdur. Bu rolun öhdəsindən gələ bilmərəm. Ona görə də ilk olaraq mənə epizodik rol verilməsini xahiş etdim. "Rejissor" isə bundan əsəbiləşərək çox kobud danışdı. Onda, Roza xanım mənə yaxınlaşıb adımı soruşdu. Dedim. Adəti üzrə çox sakit səslə dedi: "Səməd, oğlum, xoşum gəldi səndən. Çünki indi teatra gələn gənclərin hamısı ilk dəfədən baş rol oynamaq iddiasındadırlar. Amma gərək özünü birinci dəfə kiçik, epizodik rollarda sınayasan, özünü sübut edəsən, sonra böyük teatr yoluna başlamaq olar". Həmin gündən Roza xanımla səmimi münasibətlərimiz başladı. Sonra Rüfət Əhmədzadənin "Hələlik" komediyasında Roza xanımın ustalığının şahidi oldum. Üç-dörd cümlədən ibarət kiçik bir epizodu, yaşlı qadını elə bir ustalıqla oynadı ki, tamaşa qurtarandan sonra hamı ayaqüstə onu alqışlayırdı. O, sözün əsl mənasında, sənətkar idi. Rollar Roza xanım üçün epizodik və ya baş rola bölünmürdü. O, aktrisa kimi rolun daxilində dayanan insanın cizgilərini olduğu kimi yarada bilirdi.

Ömrünün sonlarında Nəriman Həsənzadənin "Pompeyin Qafqaza yürüşü" dramında oynadığı Hökmdar qadın təkcə Naxçıvan yox, ümumilikdə, ölkə səviyyəsində teatr aləmində səs salan bir obraz idi. 70 yaşlı Roza Cəfərxanova səhnədə özündən 30-40 yaş kiçik olanlarla eyni çeviklikdə hərəkət edir, yaşına uyğun olmayan plastika nümayiş etdirirdi. Teatrda indi də yaşlı nəslin həvəslə danışdığı bir xatirə var. Hələ 1970-ci illərdə ölkənin rayonlarından birinə qastrola gedən Naxçıvan teatrı tamaşaçılar üçün bir faciə oynayır. Həmin tamaşada Roza xanım əzazil qadın obrazını canlandırır. Tamaşa qurtarandan sonra rayon ictimaiyyəti sənətkarlarla görüşəndə rayonun milis şöbəsinin rəisi Roza xanıma yaxınlaşıb deyir: "Sizin ifanızda səhnədəki qadınla burdakı qadını müqayisə edəndə çaşdım. Mən tamaşaya baxarkən sizə o qədər nifrət etdim ki, iki dəfə əlimi tabel silahıma atıb sizi elə səhnədəcə güllələmək istəyirdim. Siz böyük sənətkarsınız". Bu, bəlkə də, çox az-az aktyor və aktrisaya qismət olan taledir. Rolu düzgün oynamaq, onu tamaşaçıya sevdirmək ustalığının son həddi budur!

Dövlətimiz Roza Cəfərxanovaya layiq olduğu ən yüksək qiyməti verib. O, 2000-ci ildə ulu öndərimiz Heydər Əliyevin sərəncamı ilə Xalq artisti fəxri adına, 2002-ci ildə isə Prezident təqaüdünə layiq görülüb. Xalq artisti 2010-cu ildə 83 yaşında Naxçıvanda vəfat edib. Yaşasaydı, Roza xanım bu gün 90 yaşını qeyd edəcəkdi.

**Səməd CANBAXŞIYEV**

# Naxçıvanda basketbolun inkişafı diqqət mərkəzindədir

## *Əsas məqsəd milli komandaya oyunçu yetişdirməkdir*

***Ümummilli lider Heydər Əliyevin siyasi kursunun ölkə başçısı cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsi nəticəsində bütün sahələrdə olduğu kimi, idmanın inkişafında da uğurlar əldə olunub, ölkənin bütün regionlarında komanda idman növləri üzrə bölmələrin açılması və inkişaf etdirilməsi prosesi başlanıb. Əsas məqsəd isə milli yığma komandalara ehtiyat qüvvələrin hazırlanması, beynəlxalq yarışlarda ölkə bayrağını dalğalandırmaq, peşəkar idmançılar yetişdirməkdir. Bu gün qazanılan uğurlar idman sahəsində həyata keçirilən tədbirlərə əyani sübutdur.***



Bu gün Naxçıvan Muxtar Respublikasında da idman kütləvi hal alıb. Son 21 ildə muxtar respublikada idmanın inkişafı istiqamətində əsaslı işlər görülüb, idman kompleksləri tikilib, yeni idman zalları gənclərin ixtiyarına verilib. Bununla yanaşı, Naxçıvanda idman federasiyaları yaradılıb ki, onların regionda inkişafına böyük diqqət göstərilir. Belə federasiyalardan biri də Basketbol Federasiyasıdır. Federasiya yarandığı gündən bu idman növünün təbliği, təşviqi və gənclər arasında tanıdılması üçün mütəmadi işlər görür. Ümumiyyətlə, dünya praktikasında basketbolun təlim-məşq prosesi, əsasən, ümumtəhsil məktəblərinin, texnikumların, peşə liseylərinin idman zalları və meydançalarında keçirilir ki, bu da kütləviliyin artmasına, məktəblilərin asudə vaxtlarından səmərəli istifadə olunmasına və bacarıqlı idmançıların seçilməsinə köməklik edir.

Ötən ili Basketbol Federasiyası üçün uğurlu hesab etmək olar. Federasiyanın sədr müavini Ənvər Məmmədov bizimlə söhbətində ilk olaraq "Gənclər bu idman növünə niyə maraq göstərirlər?" sualına aydınlıq gətirdi: "Basketbol çox mürəkkəb oyundur. Bu oyunda həm zəka, həm də fiziki hazırlıq eyni dərəcədə vacibdir. Onunla məşğul olan şəxs hərtərəfli inkişaf edir. Üstəlik, bu idman növü ilə məşğul olanda boyun artması, qədd-qamətin düzəlməsi daha da tezləşir. Hətta aparılan araşdırmalar göstərib ki, basketbol insan orqanizmində qan dövranının sürətli hərəkətini bərpa edir, gənclərin sağlam ruhda böyüməsinə, sağlam tərbiyə olunmasına, həmçinin kollektiv arasında dostluq münasibətlərinin qurulmasına şərait yaradır".

Federasiyanın sədr müavini vurğuladı ki, ümumiyyətlə, güclü idmançıların ərsəyə gəlməsi üçün, ilk növbədə, basketbolun inkişafını stimullaşdıran lazımi şəraitin yaradılması və bu işə təcrübəli məşqçilərin cəlb edilməsi vacibdir. Bunun üçün də muxtar respublikada bu sahədə bütün işlər görülüb. O, görülən işlər barədə məlumat verərək dedi: "İlham Əliyev adına Olimpiya-İdman Kompleksində istedadlı yeniyetmələr üçün bölməmiz fəaliyyət göstərir. Burada basketbola maraq göstərən istedadlı gənclər arasında seçimlər aparılır. Hazırda federasiyamızın Naxçıvan şəhərində 3, hər bir rayonda isə 1 bölməsi olmaqla, 10 bölməsi fəaliyyət göstərir. Eyni zamanda Ordubad şəhərində və Culfa rayonunun Yaycı kəndində qızlardan ibarət komandalarımız da var. Qeyd olunan qruplarda məşqlər aparmaq, uğurlu nəticələr əldə etmək məqsədilə rayon və şəhər komandalarına məşqçi-müəllimlər təyin edilib, məşqçi-müəllimlər və idmançılar idman ayaqqabısı, geyimi və basketbol topu ilə təmin ediliblər. Fəaliyyət göstərən bölmələrimizdə 200-dən çox idmançı basketbolla məşğul olur".

Federasiya işini daha peşəkar qurmaq, bu növü təbliğ etmək üçün seminarlar da təşkil edir. Ənvər Məmmədov bildirdi ki, bu işin daha uğurlu olması üçün ölkənin tanınmış məşqçi-müəllimləri federasiyaya cəlb edilir. Nəticədə, keçdiyimiz təlim-məşq prosesində xeyli canlanma və irəliləyişlər nəzərə çarpır. Bununla yanaşı, federasiya Gənclər və İdman Nazirliyi ilə birgə tədbirlər planına uyğun olaraq yarışlar, turnirlər təşkil edir. Artıq iki qurumun birgə təşkil etdiyi basketbol üzrə muxtar respublika çempionatının yüksək və I dəstəsində ikinci dövrəyə start verilib. Həmçinin yoldaşlıq görüşlərinin təşkili istiqamətində atdığımız addımlar gəncləri bu növə daha çox cəlb edir. Bunun nəticəsidir ki, federasiyamız nazirliklə birgə 2016-cı ildə 56 tədbir keçirib.

"İndi bəzi gənclərin idmanla məşğul olmaması heç də başa düşülən deyil. Çünki muxtar respublikada təkcə basketbol yox, digər idman növləri ilə məşğul olmaq üçün hər bir yeniyetmə və gəncə şərait yaradılıb", – deyən federasiyanın sədr müavini bildirdi ki, istər biz federasiya rəsmiləri, istər məşqçi-müəllimlər, istərsə də idmançılar bundan yararlanmağı bacarmalıyıq.

Bu gün idman muxtar respublikada ən öndə gedən sahələrdən biridir. Təbii ki, bunun səbəbi yaradılan şəraitdir. İnanırıq ki, yaradılan şəraitin nəticəsində Basketbol Federasiyası idmançılarının böyük əksəriyyəti yüksək dəstələrdə mübarizə aparan komandalara, milli yığma komandalarına cəlb olunacaq və muxtar respublikamızın idman şərəfini qoruyacaq, idman ənənələrini layiqincə davam etdirəcəklər.

**Ceyhun MƏMMƏDOV**

***Muxtar respublika gömrük orqanları arasında futzal turniri keçirilib. Yarış Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin yaradılmasının 25 illik yubileyinə həsr olunub. Ənənəvi turnirdə 7 komanda iki yarımqrupda mübarizə aparıb. Yarışa Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksi ev sahibliyi edib.***

# Gömrükçülərin futzal turnirinə yekun vurulub



Yarımqruplarda keçirilən oyunlardan sonra ilk iki pillədə qərarlaşan komandalar növbəti mərhələyə adlayıblar. Yarımfinal qarşılaşmalarında "Şahtaxtı Gömrük İdarəsi" "Mühafizə xidməti"ni, Naxçıvan Hava Nəqliyyatında Gömrük İdarəsi ilə Naxçıvanterminalkompleks Birliyinin birləşmiş komandası isə "Naxçıvan Şəhər Gömrük İdarəsi"ni məğlub edərək həlledici oyuna vəsiqəni təmin ediblər.

Final qarşılaşmasından öncə keçirilmiş üçüncülük uğrunda oyunda Mühafizə Xidmətinin futzalçıları sevinib: 5:2.

Final matçı gərginliyi ilə yadda qalıb. Qarşılaşmanın ilk dəqiqələrində əlverişli qol imkanlarını boşa verən "Şahtaxtı Gömrük İdarəsi" ilk hissədə qapısından 2 top buraxıb. Fasilədən sonra da oyunun ssenarisi dəyişməyib. Final qarşılaşması "Terminal"ın 6:2 hesablı qələbəsi ilə başa çatıb. Çempion komandanın heyətində məhsuldar oyunu ilə seçilən Rövşən İsrafil yarış ərzində vurduğu qolların sayını 21-ə çatdıraraq turnirin ən sərrast oyunçusu olub.

Komandaların mükafatlandırılması mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-mayoru Səhət Həbibbəyli ölkəmizdə, o cümlədən muxtar respublikamızda idmanın inkişafına və kütləviliyinin artırılmasına göstərilən yüksək dövlət qayğısından danışıb. Gömrükçülər arasında idmanı təbliğ etmək, onların fiziki sağlamlığının qayğısına qalmaq məqsədilə keçirilən yarışların ənənəvi xarakter aldığını qeyd edən komitə sədri idmanın gömrük əməkdaşları arasında qarşılıqlı münasibətlərin inkişafına müsbət təsir göstərdiyini, onlarda qələbəyə inam, mübarizlik hisslərini artırdığını önə çəkib.

Sonra komandaların və turnirdə fərqlənən idmançıların mükafatlandırılması mərasimi olub. Naxçıvan Hava Nəqliyyatında Gömrük İdarəsi ilə Naxçıvanterminalkompleks Birliyinin birləşmiş komandası turnirin keçici kuboku ilə yanaşı, kubok, diplom və medallarla təltif olunub. Turnirin "Ən yaxşı qapıçı"sı, "Ən yaxşı müdafiəçi"si, "Ən məhsuldar oyunçu"su, o cümlədən oyunları idarə edən hakimlər də mükafatlandırılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 145